# Kim gözəl surətdə dəstəmaz alarsa, günahları cəsədindən, hətta dırnaqlarının altından çıxar

Osman bin Affandan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: " Kim gözəl surətdə dəstəmaz alarsa, günahları cəsədindən, hətta dırnaqlarının altından çıxar."

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim dəstəmazı sünnəyə uyğun və ədəblərinə riayət edərək yerinə yetirərsə, günahlarının və xətalarının silinməsinə səbəb olar, hətta günahlar ayaq və əl dırnaqlarının altından belə çıxar.

http://www.sunnah.global/hadeeth/az/show/6263